# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# SƏRƏNCAM

**"Naxçıvan Muxtar Respublikasının Tibb Müəssisələrinin İdarəetmə Birliyi" publik hüquqi şəxsin ləğv edilməsi barədə” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2025-ci il 03 iyun tarixli 119-07/S nömrəli Sərəncamının icrasının təmin edilməsi haqqında**

"Naxçıvan Muxtar Respublikasının Tibb Müəssisələrinin İdarəetmə Birliyi" publik hüquqi şəxsin ləğv edilməsi barədə” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2025-ci il 03 iyun tarixli 119-07/S nömrəli Sərəncamının icrasını təmin etmək məqsədilə:

1. Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi, Naxçıvan Muxtar Respublikasının Səhiyyə Nazirliyi, “Naxçıvan Muxtar Respublikasının İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi” publik hüquqi şəxs və icra prosesində müəyyən ediləcək digər aidiyyəti dövlət orqanları (dövlətin hüquqi şəxsləri) ilə razılaşdırmaqla, Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin aktlarının və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının “Naxçıvan Muxtar Respublikasının Tibb Müəssisələrinin İdarəetmə Birliyi" publik hüquqi şəxsin ləğv edilməsi barədə” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2025-ci il 03 iyun tarixli 119-07/S nömrəli Sərəncamına (bundan sonra – Sərəncam) uyğunlaşdırılması ilə bağlı təkliflərini bir ay müddətində Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

2. Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanları on beş gündən gec olmayaraq, Sərəncamın icrasını təmin etmək məqsədilə öz səlahiyyətləri daxilində normayaratma vəzifələrindən irəli gələn tədbirlər görüb, normativ hüquqi aktlarını və ya təkliflərinin olmadığı barədə məlumatı Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyinə təqdim etsinlər və icra vəziyyəti tələb etdikdə, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə məlumat versinlər.

3. Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların Sərəmcama uyğunlaşdırılmasını təmin edib, bu barədə iki ay müddətində Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

4. Naxçıvan Muxtar Respublikasının Səhiyyə Nazirliyi Sərəncamın 2.1-ci bəndinə əsasən "Naxçıvan Muxtar Respublikasının Tibb Müəssisələrinin İdarəetmə Birliyi" publik hüquqi şəxsin mülki qanunvericiliyin tələblərinə uyğun olaraq ləğv edilməsi prosesinin aparılması məqsədilə beş iş günü müddətində Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin, Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin, Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, Naxçıvan Muxtar Respublikası Dövlət Arxiv İdarəsinin və “Naxçıvan Muxtar Respublikasının İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi” publik hüquqi şəxsin nümayəndələrindən ibarət tərkibdə ləğvetmə komissiyası yaratsın.

5. Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi, Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi, Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Naxçıvan Muxtar Respublikası Dövlət Arxiv İdarəsi və “Naxçıvan Muxtar Respublikasının İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi” publik hüquqi şəxs bu Sərəncamın 4-cü hissəsinə əsasən yaradılacaq ləğvetmə komissiyasında təmsil olunacaq nümayəndələri barədə təkliflərini üç iş günü müddətində Naxçıvan Muxtar Respublikasının Səhiyyə Nazirliyinə təqdim etsinlər.

6. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Ceyhun Cəlilov**
**Naxçıvan Muxtar Respublikasının Baş naziri**

Naxçıvan şəhəri, “ 5 ” “ iyun ” 2025-ci il

№ 72s